Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**




# Dünya ölkələrində sayca artan Xocalı abidələri - ən yeni dövlətçilik tariximizin tutarlı faktları...

**Azərbaycan tarixinin elə səhifələri var ki, o səhifələr xalqımızın qanı ilə yazılıb. XX əsrin dəhşətli soyqırımlarından biri kimi dünya tarixinə düşən Xocalı genosidi erməni daşnakları tərəfindən Azərbaycan xalqına qarşı törədilib.**

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı birləşmələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhəri işğal edilərək etnik azərbaycanlılara qarşı soyqırım cinayəti törədilib. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərin, o cümlədən, 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

**Xocalı qurbanlarına qoyulan abidələr...**

Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün dövlətimiz, eləcə də ölkəmizdəki ictimai qurumlar, xarici diaspor təşkilatlarımız tərəfindən müxtəlif tədbirlər keçirilir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyilə bütün dünyada keçirilən "Xocalıya ədalət" layihəsi Xocalı soyqırımına beynəlxalq aləmin ədalətli mövqe bildirməsinə səbəb olur.

Qədim Azərbaycan şəhəri Xocalıda dinc azərbaycanlılara qarşı törədilən soyqırım cinayətlərinə beynəlxalq aləmin qiymət verməsi və bu soyqırımın bütün dünya ölkələri tərəfindən rəsmən azərbaycanlıların genosidi olaraq tanınması olduqca vacibdir.

Bildiyimiz kimi, Xocalı soyqırımının dünyada tanıdılması üçün atılan addımlardan biri dünyanın müxtəlif ölkələrində soyqırım qurbanlarına abidələrin qoyulmasıdır. Bu gün ayrı-ayrı ölkələrdə, şəhərlərdə Xocalı soyqırımı qurbanlarına həsr edilən soyqırım abidələri qoyulub. Bu abidələr azərbaycanlıların soyqırım tarixinin dünyada tanıdılmasına və erməni faşizminin ifşasına səbəb olan amillərdir.

Azərbaycan xalqının uzun illər erməni faşizmindən əziyyət çəkdiyi, azərbaycanlıların erməni faşistlərinin törətdiyi antiinsani cinayətlərin qurbanı olduğu məlumdur. Yalnız 1992-ci ilin 26 fevralında deyil, ondan əvvəlki illərdə də erməni faşistləri azərbaycanlılara qarşı kütləvi qətliamlar törədiblər.

Soyqırım abidələri xalqımızın soyqırım tarixini simvolizə edən, göstərən faktlardır.

**Bakıda "Ana harayı" abidəsi...**

Xocalı soyqırımı qurbanlarının xatirəsinə Bakıda ucaldılan abidə "Ana harayı", yaxud Xocalı soyqırımı abidəsi adlandırılır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində mülki azərbaycanlılara qarşı erməni silahlı birləşmələri tərəfindən törədilmiş soyqırım qurbanlarının xatirəsinə Bakı şəhərinin Xətai rayonunda, "Şah İsmayıl Xətai" metrostansiyası yaxınlığında ucaldılmış abidənin layihə rəhbəri memar Camal Rəşid Əlizadə, abidənin müəllifləri isə Aslan, Mahmud və Teymur Rüstəmovlardır.

**Avropada və Hollandiyada Xocalı soyqırımına aid ilk abidə...**

Xocalı soyqırımına abidə qoyulan ölkələrdən biri Hollandiyadır. Hollandiyanın Haaqa şəhərində ermənilərin Xocalıda törətdikləri soyqırıma etiraz əlaməti olaraq ucaldılan abidə 24 fevral 2008-ci ildə qoyulub.

Məlumatlara görə, Azərbaycandan kənarda ucaldılan ilk belə abidənin açılışında Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (indiki Diasporla iş üzrə Dövlət Komitəsi) nümayəndələri, diplomatik korpusun əməkdaşları, Azərbaycan və türk diasporlarının təmsilçiləri iştirak ediblər.

Bilgilərə görə, "Kamperfoeliestraat" parkında ucaldılan abidə Hollandiya-Azərbaycan-Türk Kültür Dərnəyinin ən böyük layihələrindən biridir. Abidədə körpəsini erməni qəsbkarlarından qorumaq üçün başının üzərinə qaldıran ana təsvir olunub. Abidənin hündürlüyü 2 metrə yaxındır. 30 illiyə kirayələnmiş ərazidə mərmərdən ucaldılan abidənin ətrafındakı böyük bir sahədə gül-çiçək bağı salınacaq.

Məlumatlara görə, 2020-ci ildə çoxsaylı ziyarətçinin eyni anda bu məkanda toplaşmasının qeyri-mümkün olduğu nəzərə alınaraq, abidə daha geniş əraziyə, insanların kütləvi hərəkət etdiyi yerə köçürülüb və ətrafı abadlaşdırılıb.

**Berlində Xocalı abidəsi...**

Məlumatlara görə, Xocalı abidəsi (almanca Chodschali?) Almaniyanın paytaxtı Berlin şəhərinin Şteqlits-Selendorf inzibati dairəsində Qotfrid-Benn kitabxanasının həyətində ucaldılıb. Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidənin ucaldılmasının təşəbbüskarları Səlhab Məmmədov, Akif Əsgərov və Əli İbadullayevlə yanaşı, onun həmmüəlliflərindən biri, artıq 45 ildir ki, Almaniyada yaşayan Azərbaycan rəssamı və heykəltəraşı İbrahim Əhraridir.

Əldə etdiyimiz məlumatlara görə, 2011-ci ilin may ayının 30-da baş tutan açılış mərasimində Şteqlits-Selendorf dairəsinin özünüidarəetmə təşkilatının başçısı Norbert Kopp, Azərbaycan diasporunun, Almaniya ictimaiyyətinin nümayəndələri, hər iki ölkənin elm və mədəniyyət xadimləri iştirak ediblər.

**Sarayevoda Xocalı soyqırımı qurbanlarına abidə...**

Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda da Xocalı soyqırımı qurbanlarına abidə ucaldılıb.

Belə ki, 24 fevral 2012-ci il tarixində Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulan "Dostluq" parkının və Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin açılışı olmuşdu.

Açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti, "Xocalıya ədalət" kampaniyasının təşəbbüskarı Leyla Əliyeva iştirak etmişdi.

Heykəltəraş Natiq Əliyevin müəllifi olduğu abidə iki dərdli ananın - yaşlı və cavan qadının obrazını əks etdirir. "Xocalıya ədalət" kampaniyası çərçivəsində Heydər Əliyev Fondunun təşəbbüsü, Azərbaycan Respublikasının maliyyə dəstəyi, Sarayevonun Novi Qrad bələdiyyəsinin və Azərbaycanın Bosniya və Herseqovinadakı diplomatik nümayəndəliyinin dəstəyilə reallaşan bu layihə Xocalı soyqırımının 20-ci ildönümü ərəfəsində faciənin əsl mahiyyəti ilə bağlı həqiqətlərin təbliğinə xidmət edən mühüm hadisə idi.

**Meksikanın paytaxtında da Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılıb**

Meksikanın Mexiko şəhər sakinləri də Xocalı soyqırımı qurbanlarının xatirəsini anan insanlar sırasındadır. 2012-ci ilin 23 avqust tarixində Mexiko şəhərinin Tarixi Mərkəz rayonu ərazisində Tlakskoake-Xocalı meydanının və burada Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin açılması bu şəhərin əhalisinə imkan verir ki, onlar azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qaldığını daha yaxından öyrənib bilsinlər.

Əslində, bu abidələr Azərbaycan həqiqətlərinin dünyaya yayılmasında mühüm rol oynayır.

**Ankarada "Xocalı şəhidləri" abidəsi...**

Türkiyənin paytaxtı Ankara şəhərində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılan "Xocalı şəhidləri" abidəsinin açılışı 28 mart 2014-cü ildə baş tutub, abidənin qoyulması soyqırımın 22-ci ildönümünə təsadüf edirdi.

"Xocalı şəhidləri" Türkiyədə Xocalı soyqırımına aid ilk abidədir və abidə "Xocalı soyqırımı xatirə parkı"nda yerləşir, parkda Xocalı Muzeyi də fəaliyyət göstərir.

**İzmitdə "Xocalı şəhidləri" abidəsi...**

22 aprel 2015-ci ildə Türkiyənin İzmit şəhərində ucaldılan "Xocalı şəhidləri" abidəsi şəhərin Yenişəhər məhəlləsində qoyulub və abidənin ümumi hündürlüyü 2,5 metr təşkil edir. Şəhidlərin ölməzliyini bildirən səmaya doğru ucalmış sütunlardan ibarət abidənin üzərində Xocalı soyqırımı haqqında qısa məlumat yerləşdirilib, Azərbaycan və Türkiyə dostluğunu tərənnüm edən simvollar əks olunub. Bundan başqa, abidənin kənarlarındakı lövhələrdə Xocalıda qətlə yetirilmiş 613 nəfərin adları həkk olunub.

**İzmirdə və Sakaryada "Xocalı şəhidləri" abidəsi...**

27 fevral 2016-cı ildə Türkiyənin İzmir şəhərində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılan "Xocalı şəhidləri" abidəsi qardaş ölkənin xalqımızın bu böyük acısını öz acısı bilməsinin nümunələrindən biridir. Məlumatlara görə, abidə İzmirin Bornovo Bələdiyyəsinin maliyyə dəstəyi və tanınmış QHT fəalı Mülazim Kardelen Paşanın köməkliyilə hazırlanıb.

2018-ci ildə isə Sakarya şəhərinin Karasu rayonunda Xocalı soyqırımı abidəsi və Qarabağ prospektinin açılışı olub.

Həm Avropa, Latın Amerikası ölkələrində, həm də qardaş Türkiyədə Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidələrin qoyulması erməni terrorunun yalnız Azərbaycanda və Anadoluda deyil, bütövlükdə, türk coğrafiyasında saysız-hesabsız genosid aktlarına səbəb olduğunun açıq ifadəsidir. Erməni daşnakları tarixən türk xalqlarına qarşı soyqırım cinayətləri törədiblər və Xocalı soyqırımı da genosidlərin ən dəhşətlisidir. Azərbaycan tarixinin qanayan səhifəsi olan Xocalı soyqırımına beynəlxalq aləmin birləşərək ədalətli qiymət verəcəyi günü gözləyirik.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**